Müqavilə sifarişi (sifariş forması)

040-12/2023
01.12.2023

1. Sifarişin nömrəsi (hazırda sifarişçi şöbə üzrə ardıcıllıq):

2. Sifarişin tarixi: 30.11.2023

3. Müvafiq xərc maddəsi: Tezliklə təqdim olunacaq 314000.

4. Malın (işin və ya xidmətin) təyinatı: ARPİİ

5. Müqavilə imzalanması təklif olunan mal (iş və ya xidmət) haqqında məlumatlar:

Malın adı/ işin və ya xidmətin təsviri: Virtual Qərbi Azərbaycan Layihəsi üzrə hazırlamış məlumatları Portala yerləşdirilmə xidməti

Qarşı tərəflə razılaşdırılmış qiymət *(qiymət təklifi və ya Qiymət Razılaşma Protokolu əlavə olunmaqla)*: 20,000.00 AZN (ƏDV daxil)

Malın (işin və ya xidmətin) həcmi: *Qiymət Razılaşma Protokolunda qeyd olunub*

Malın (işin və ya xidmətin) texniki spesifikasiyaları: Protokolda qeyd olunub

Malın çatdırılma şərtləri ("İnkoterms") və ünvanı /işin görüləcəyi və ya xidmətin göstəriləcəyi yer: DDP BAKU

Malın çatdırılma (işin görülmə və ya xidmətin göstərilmə) müddəti: 10 gün
100% işlər bitdikdən sonra 15 bank günü ərzində təhvil təslim aktına əsasən

6. Qarşı tərəf haqqında məlumatlar:

Adı: Strateji Kommunikasiyalar Mərkəzi" ictimai birliyi

Müqavilə imzalamaq səlahiyyətinə malik şəxs barədə məlumatlar *(müvafiq qaydada təsdiq edilmiş və ya leqallaşdırılmış təsdiqedici sənəd əlavə edilməklə, soyadı, adı, vəzifəsi)*: Direktor, Qədirli Anar Ələsgər oğlu

Qeydiyyat sənədləri və təsisçilər barədə məlumatlar, tələb olunduğu təqdirdə müvafiq lisenziyalar, akreditasiya sənədləri və digər sənədlər *(müvafiq qaydada təsdiq edilmiş və ya leqallaşdırılmış sənəd əlavə olunmaqla):*

Rekvizitləri *(əlavə olunmalıdır).*

7. Sifarişçi struktur bölmə: Təchizat şöbəsi

Rəhbərin adı, soyadı: V.İ.E Musazadə Fuad

Rəhbərin imzası _____

Qeyd: İcraçı struktur bölmə tərəfindən Müqavilə predmetinə uyğun olaraq bu sifariş formasında nəzərdə utulanlardan başqa sənədlər tələb oluna bilər.

Xidmətlərin satın alınması üzrə
SATINALMA MÜQAVİLƏSİ
№ 040-12/2023

1. Müqavilənin tərəfləri

1.1. Bu müqavilə bir tərəfdən bundan sonra "Sifarişçi" adlandırılacaq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, İşlər müdiri Ramin Quluzadənin şəxsində, digər tərəfdən bundan sonra "İcraçı" adlandırılacaq "Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi, İdarə Heyətinin sədri Qədirli Anar Ələsgər oğlunun şəxsində 13. 12. 2023-cü il tarixində Bakı şəhərində imzalanmışdır.
1.2. Sifarişçi və İcraçı ayrı-ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" kimi də adlandırıla bilər.

2. Müqavilənin predmeti

2.1. Tərəflər təsdiq edirlər ki, Sifarişçi bu müqavilənin əlavəsi hesab olunan Qiymət Razılaşma Protokolunda qeyd olunan Virtual Qərbi Azərbaycan layihəsi üzrə hazırlanmış məlumatların portala yerləşdirmə xidmətlərinin satın alınması ilə əlaqədar İcraçıya 20 000 AZN (iyirmi min manat) (bütün xərclər daxil) məbləğinin ödənilməsini öhdəsinə götürür.
2.2. İcraçı müqavilədə nəzərdə tutulmuş şərtlər əsasında Sifarişçiyə bu müqavilənin əlavəsi hesab olunan Qiymət Razılaşma Protokolunda qeyd olunan Virtual Qərbi Azərbaycan layihəsi üzrə hazırlanmış məlumatların portala yerləşdirmə xidmətlərini (bundan sonra-Xidmətlər) öz öhdəsinə götürür. Göstərilmiş Xidmətlər İcraçının təklifinə və bu müqavilədə göstərilmiş şərtlərə uyğun olmadıqda, İcraçı aşkar olunan qüsurların müqavilənin xüsusi şərtlərində göstərilmiş qaydada aradan qaldırılmasına təminat verir.
2.3. Sifarişçi müqavilədə nəzərdə tutulmuş şərtlər əsasında Xidmətlərin İcraçıdan qəbul edilməsini və dəyərinin ödənilməsini öhdəsinə götürür.
2.4. Qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla müqavilənin məbləği dəyişilməz olaraq qalır.
2.5. Aşağıdakı sənədlər bu müqavilənin ayrılmaz tərkib hissəsi hesab olunur:
2.5.1. Müqavilənin Xüsusi Şərtləri (Əlavə 1);
2.5.2. Qiymət Razılaşma Protokolu (Əlavə 2);
2.5.3. Məxfilik və Məlumatların açıqlanmaması haqqında Razılaşma (Əlavə 3).

3. Tətbiq olunan hüquq

3.1. Müqavilənin müddəalarının şərhi Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq aparılmalıdır. Müqavilənin icrası ilə əlaqədar tətbiq olunan əlavə hüquqi normalar və sənədlər müqavilənin xüsusi şərtlərində göstərilməlidir
3.2. İcraçı müqavilənin icrası ilə əlaqədar əqli mülkiyyət haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin ("Patent haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", digər qanunların və əlaqədar normativ hüquqi aktların)tələblərinə riayət edir və həmin qanunvericiliyin pozulması nəticəsində üçüncü şəxslərin iddialarından Sifarişçini qoruyaraq, onların qarşısında məsuliyyət daşıyır.
3.3. Müqavilə üzrə aparılan tədqiqatların nəticələri, hesabatlar və İcraçı tərəfindən hazırlanan digər sənədlər Sifarişçinin mülkiyyəti hesab olunur və onun sərəncamında qalır. İcraçı bu sənədlərin surətini özündə saxlaya bilər.

Müqavilə İcraçının günahı nəticəsində ləğv olunarsa, müqavilə üzrə gətirilmiş materiallar, qurğular, avadanlıqlar və müvəqqəti tikililər Sifarişçinin mülkiyyətində qalır.

4. Müqavilənin dili

Müqavilə Azərbaycan Respublikasının dövlət dilində tərtib olunur. Zərurət olduqda, müqavilə beynəlxalq ticarətdə geniş istifadə olunan dillərin birinə tərcümə oluna bilər.

5. Tərəflərin öhdəlikləri

5.1. İcraçı Xidmətlərin göstərilməsi üzrə müqavilədə nəzərdə tutulan öhdəlikləri yerinə yetirib Xidmətləri Sifarişçiyə müəyyənləşdirilmiş qaydada təhvil verməlidir.
5.2. İcraçı müqavilənin icrası ilə bağlı olan bütün şərtləri, tələbləri və buna aid məlumatları öyrəndikdən sonra müqaviləni imzalayır. İcraçının bu cür şərtləri, tələbləri və məlumatları bilməməsi onu müqavilə üzrə götürdüyü öhdəliklərdən azad etmir.
5.3. İcraçı müqavilənin icrası ilə bağlı müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş icazələrin, lisenziyaların və müvafiq razılaşmaların alınmasını təmin edir.
5.4. Sifarişçi müqavilə üzrə göstərilmiş Xidmətlərin təxirəsalınmadan (aşkar olunan qüsurların İcraçı tərəfindən aradan qaldırılmasını nəzərə almaqla) qəbul edilməsini və ödəmələrin vaxtında aparılmasını öhdəsinə götürür.
5.5. Sifarişçi müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş hüquqi və təşkilati məsələlərin həllini, müqavilənin icrasına başlanılması üçün müvafiq dövlət orqanlarından (qurumlarından) icazələrin ("Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2.7-ci maddəsinin tələbləri nəzərə alınmaqla) alınması tələb olunduğu təqdirdə, Sifarişçi belə icazələrin müqavilənin icrasına başlanılana qədər əldə olunmasını təmin edir.
5.6. Sifarişçi müqavilənin icrası ilə bağlı bütün məlumatların dəqiqliyinə və İcraçıya vaxtında çatdırılmasına təminat verir.

6. Xidmətlərin mənşəyi

Göstərilən Xidmətlərin mənşəyi Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş qərarlara əsasən satınalmaları qadağan olunmuş ölkələrdən (ərazilərdən) olmamalıdır.
Xidmətlərin mənşəyi dedikdə, Xidmətlərin göstərildiyi ölkə (ərazi) nəzərdə tutulur. Xidmətlərin mənşəyi İcraçının dövlət mənsubiyyətindən fərqlənə bilər.

7. Xidmətlərə dair tələblər

Göstərilən Xidmətlər əsas şərtlər toplusunda nəzərdə tutulmuş keyfiyyət xüsusiyyətlərinə, bu cür xüsusiyyətlər göstərilmədiyi (olmadığı) hallarda isə Xidmətlərin mənşə ölkəsində qüvvədə olan texniki reqlamentlərə və (və ya) standartlara uyğun olmalıdır. İcraçı Xidmətlərin tələb olunan keyfiyyət xüsusiyyətlərinə uyğunluğunu müvafiq sənədlərlə təsdiq etməlidir.

8. Malların göndərilməsi və sənədləşdirilməsi

Sifarişçi Azərbaycan Respublikasının ərazisindən kənarda satın alınan malların göndərilməsinə dair tələblərini Parisdə Ticarət Palatası tərəfindən nəşr edilən və qüvvədə olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları "İnkoterms"in şərtlərinə uyğun olaraq müəyyənləşdirir. Bu barədə məlumat müqavilənin xüsusi şərtlərində göstərilir.
Azərbaycan Respublikasının ərazisi daxilində malların göndərilməsinə dair tələblər və şərtlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirilir və bu barədə məlumatlar müqavilənin xüsusi şərtlərində öz əksini tapmalıdır.

9. Malların qablaşdırılması, markalanması və daşınması

9.1. Mallar müqavilənin xüsusi şərtlərində göstərilmiş tələblərə uyğun qablaşdırılmalı, markalanmalı və müəyyənləşdirilmiş son təyinat məntəqəsinədək daşınmalıdır.
9.2. Qablaşdırma malların müqavilədə göstərilmiş sonuncu təyinat məntəqəsinə zədələnmədən və korlanmadan çatdırılmasını təmin etməlidir. Qablaşdırmanın ümumi (müvafiq texnikinormativ hüquqi aktlara cavab verən) şərtləri və (və ya) xüsusi (Sifarişçinin əlavə tələblərinə cavab verən) şərtləri müqavilənin xüsusi şərtlərində göstərilməlidir.
Sifarişçinin əlavə tələbləri çərçivəsində qablaşdırılmanın müvafiq hərarətə, duzlu, radioaktiv və digər ekstremal mühitə, çöküntülərə və açıq halda saxlanılmasına davamlılığı, malların tələb olunan qaldırıcı və nəqliyyat vasitələri ilə daşınmasına imkan yaradan qablaşdırıcı qutuların ölçüləri və çəkisi, digər tələbləri göstərilə bilər.
9.3. Markalanma
Markalanma malların baxışı zamanı onların digər mallardan ən qısa müddət ərzində seçilməsinə imkan yaratmalıdır. Malların qablaşdırılan hissəsi daxildən və xaricdən markalanmalıdır və müvafiq sənədlərlə müşayiət olunmalıdır.
9.4. Daşınmalar
Malların son təyinat məntəqəsinə daşınmasını təmin edən nəqliyyat vasitələrinin növü İcraçı tərəfindən müəyyənləşdirilir.

10. Ehtiyat hissələri

İcraçı müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş qaydada və müddət ərzində tələb olunan ehtiyat hissələrini Sifarişçiyə təhvil verir və onlar haqqında ətraflı məlumatları təqdim edir. Tərəflərin razılığı əsasında ehtiyat hissələrinin istehsalı dayandırıldıqdan sonra İcraçı onların istehsalı üçün tələb olunan çertyojları, cizgiləri və layihələri Sifarişçiyə təmənnasız təqdim edir.

11. İcraçının təşkilatı-hüquqi forması

İcraçı müştərək müəssisə, konsorsium və ya hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi olduqda, müqavilənin icra müddətində onun strukturu dəyişdirilərsə, Sifarişçi bu barədə təxirəsalınmadan məlumatlandırılmalı və müqavilənin davamı yalnız onun razılığı əsasında aparılmalıdır.

12. İcraçının ixtisasına dair tələblər

12.1. İcraçı təklifində təqdim olunan və Sifarişçi tərəfindən təsdiq edilmiş siyahıya uyğun olaraq əsas işçilərin və aparıcı mütəxəssislərin müqavilənin yerinə yetirilməsində iştirakını təmin edir. Sifarişçi müqavilənin icraçı müddətində dəyişdirilən işçilərin siyahısını (ixtisas uyğunluğunu və səriştəsini) yenidən təsdiq edir.
12.2. Sifarişçi səbəbini göstərməklə İcraçının hər hansı işçisinin müqavilənin icrasından uzaqlaşdırılmasını tələb edərsə, İcraçı 3 gün müddətində bu tələbi müqavilənin icrasına heç bir təsirinin olmaması şərti ilə yerinə yetirməlidir.

13. Müqavilə üzrə ödəmələr

13.1. Müqavilə üzrə ödəmələr (o cümlədən avans ödənişi) Sifarişçi tərəfindən əsas şərtlər toplusunda və müqavilənin xüsusi şərtlərində müəyyənləşdirilmiş qaydada və məbləğdə, İcraçının təqdim etdiyi sənədlər (qaimələr, aktlar, digər sənədlər) əsasında, ən qısa müddət ərzində, lakin 15 bank günündən gec olmamaq şərti ilə aparılır.
13.2. Sifarişçi satınalma müqaviləsinin yerinə yetirilməsi üçün İcraçıya satınalma sənədlərində göstərilən həcmdə, lakin satınalma müqaviləsinin ümumi dəyərinin 30 faizindən çox olmayaraq avans ödəyə bilər. Avansın alınması üçün İcraçı tərəfindən Sifarişçiyə avans ödənişinin ümumi həcmindən az olmayan məbləğdə bank zəmanəti təqdim olunmalıdır. İcraçı avans ödənişindən yalnız satınalma müqaviləsi ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün istifadə etməlidir. İcraçı avansın müqavilə ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün istifadə olunmasını müvafiq sənədlərlə əsaslandırmalı və müvafiq sənədlərin surətlərini Sifarişçiyə təqdim etməlidir. İcraçı avans təminatının qarantı və ya təsdiqləyici tərəfin münasibliyini təsdiq etmək barədə sorğu göndərir. Sifarişçi bu cür sorğuya 1 bank günü müddətində cavab verməlidir.
13.3. Müqavilə üzrə ödəmələr (avans ödənişi istisna olmaqla) Sifarişçi tərəfindən həmin müqavilədə nəzərdə tutulmuş işlərin görülməsinə mütənasib olaraq müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş qaydada və müddətdə İcraçıya ödənilir. Satınalma müqaviləsinin icrası tam başa çatdıqdan (texniki təminat müddəti də daxil olmaqla) və bunu təsdiq edən sənədlər tərtib olunduqdan sonra (qüsurların aradan qaldırılması nəzərə alınmaqla) 15 bank günü müddətində Sifarişçi ilə İcraçı arasında son haqq-hesab aparılır və həmin müddət ərzində yekun məbləğ İcraçıya ödənilir.
13.4. Müqavilə İcraçı və ya Sifarişçi tərəfindən ləğv olunursa, tərəflər müqavilənin xüsusi şərtlərində göstərildiyi qaydada ödənişlərin (o cümlədən avans və digər ödənişlərin) məbləğini müəyyənləşdirən və müqavilənin icrasını təsdiq edən sənədlər tərtib edirlər. Tərtib olunmuş sənədlər əsasında müəyyən edilmiş fərq 15 bank günü müddətində ödənilir.
13.5. Müqavilə üzrə ödəmələr (o cümlədən, avans ödənişi) müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş müddətdə ödənilmədikdə, gecikdirilmiş hər gün üçün satınalma müqaviləsinin xüsusi şərtləri ilə müəyyən olunmuş məbləğdə faiz hesablanır

14. Müqavilənin icrası

14.1. İcraçı əsas şərtlər toplusunda göstərilmiş müddət ərzində satınalma müqaviləsini imzalayır və müqavilənin yerinə yetirilməsi təminatını təqdim edir. İcraçının tələb olunan müddət ərzində satınalma müqaviləsini imzalamaması və ya müqavilənin yerinə yetirilməsi təminatını təqdim etməməsi onun öz öhdəliklərini icra edə bilməməsi kimi

qiymətləndirilir. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 40.9-3-cü maddəsi nəzərə alınmaqla, satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatının məbləği müqavilənin ümumi məbləğinin 2-5 faizi həcmində müəyyən olunur. Müqavilənin yerinə yetirilməsinin təminatının qüvvədəolma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən (tələb olunduğu halda texniki təminat müddəti daxil olmaqla) 30 bank günü çox olmalıdır.
İcraçı müqavilə üzrə öhdəlikləri yerinə yetirə bilmədiyi halda Sifarişçiyə dəyən ziyanı müqavilənin yerinə yetirilməsi təminatından ödəməlidir.
14.2. Müqavilə Sifarişçi və İcraçı tərəfindən imzalandığı andan qüvvəyə minir. Tenderin əsas şərtlər toplusunda müqavilənin Sifarişçinin yuxarı idarəetmə orqanı tərəfindən təsdiq olunması nəzərdə tutulmuşdursa, müqavilə həmin orqanın təsdiqinədək qüvvəyə minmir. Yuxarı idarəetmə orqanı təqdim olunmuş satınalma müqaviləsini 5 bank günündən gec olmayaraq təsdiq edir.
14.3. Müqavilənin icrası müqavilənin xüsusi şərtlərində göstərilmiş müddət ərzində və Sifarişçi tərəfindən təsdiq olunmuş qrafiklər əsasında aparılır. Qrafiklər yalnız tərəflərin yazılı razılığı əsasında dəyişilə bilər. Bu hallarda İcraçının müqavilə üzrə öhdəlikləri və müqavilənin icra müddəti dəyişilmir.

15. Sığorta

15.1. Müqavilənin icrası ilə əlaqədar Sifarişçinin və İcraçının riskləri Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq sığortalanır. Bu barədə məlumat müqavilənin xüsusi şərtlərində göstərilməlidir.
15.2. İcraçı müqavilədə nəzərdə tutulmuş sığorta risklərinin sığortalanması üçün məsuliyyət daşıyır və müvafiq sığorta müqavilələrini (onların surətlərini) Sifarişçiyə təqdim etməlidir. İcraçı tələb olunan sığorta müqavilələrinin hər hansı birini təqdim etmirsə, Sifarişçi həmin sığortaları aparır və onların məbləğini İcraçıya müqavilə üzrə nəzərdə tutulmuş ödənişdən çıxır. Müqavilənin icra müddətində sığorta müqaviləsi ləğv edilərsə (dəyişilərsə), İcraçı 3 bank günü müddətində Sifarişçiyə bu barədə yazılı məlumat verməlidir.
15.3. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət bu müqavilənin icra müddətini bütövlüklə əhatə etməlidir.
15.4. Malların (o cümlədən avadanlıqların, qurğuların, ehtiyat hissələrinin) bu müqavilənin xüsusi şərtlərində göstərilmiş son təyinat məntəqəsinə qədər sığortalanması Parisdə Beynəlxalq Ticarət Palatası tərəfindən nəşr olunan və qüvvədə olan "Ticarət terminlərinin təfsirinin beynəlxalq Qaydaları "İnkoterms"in şərtlərinə uyğun olaraq müəyyənləşdirilir.
15.5. İşlərin (o cümlədən tikinti, quraşdırma və digər işlərin) yerinə yetirilməsi ilə əlaqədar sığorta risklərinin sığortalanması bu müqavilədə nəzərdə tutulan işlərin başa çatdırılmasına qədər ola bilən itki və zərəri ödəməlidir. Sifarişçi qüsurların aradan qaldırılması dövründə baş verən itkilərin və zərərin ödənilməsini təmin etmək məqsədi ilə İcraçının istehsalat sahəsində olma müddətini uzatmalıdır.
15.6. Üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası üçüncü şəxs hesab olunan fiziki şəxslərin (o cümlədən Sifarişçinin işçilərinin) səhhətinə (ölüm halları daxil olmaqla), habelə fiziki və hüquqi şəxslərin əmlakına vurulan zərərin ödənilməsini təmin etməlidir. Belə sığorta malların (avadanlıqların, qurğuların və s.) gətirilməsi və quraşdırılması, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi müddətini tam əhatə etməlidir.

15.7. Sifarişçi tərəfindən digər sığorta risklərinin sığortalanması nəzərdə tutulduqda, bu barədə tələblər müqavilənin xüsusi şərtlərində göstərilməlidir.
15.8. İcraçı submüqavilələrin icra müddətində nəzərdə tutulan sığorta risklərinin sığortalanması üçün məsuliyyət daşıyır.

16. Submüqavilələr

İcraçı əsas şərtlər toplusunda nəzərdə tutulduğu halda təklifində göstərilən subpodratçı ilə müqavilənin icrası üçün tələb olunan submüqavilələr bağlaya bilər. Submüqavilələr haqqında ətraflı məlumat (o cümlədən onları icra edənlərin ixtisas uyğunluğu haqqında məlumat) İcraçının təklifində göstərilir. Submüqavilələrin bağlanması və onlarda hər hansı dəyişikliklərin aparılması yalnız Sifarişçinin yazılı razılığı əsasında edilir. İcraçı submüqavilələrin icrasına görə Sifarişçi qarşısında məsuliyyət daşıyır. İşlərin yerinə yetirilməsi və ya xidmətlərin göstərilməsi ilə əlaqədar submüqavilələrin (subpodratçıların) ümumi dəyəri müqavilənin 50 faizindən çox ola bilməz. Submüqavilələrin bağlanması İcraçını satınalma müqaviləsi üzrə öhdəliklərdən azad etmir. Satınalma müqaviləsinin icrasına subpodratçılar cəlb olunduğu halda, submüqavilələrin ümumi dəyərinin 20 faizdən az olmayan hissəsinin icrası Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş mikro, kiçik və orta sahibkarlıq subyektlərinə həvalə olunmalıdır.

17. Müqavilənin icrasına texniki nəzarət və sınaq

17.1. Sifarişçi (və ya onun nümayəndələri) əsas şərtlər toplusunda nəzərdə tutulmuş qaydada, heç bir əlavə xərc çəkmədən, müqavilənin texniki və digər şərtlərinin icrasına nəzarət etmək və sınaq keçirmək hüququna malikdir.
17.2. Sifarişçi üçün tələb olunan hər hansı texniki nəzarətin və ya sınağın keçirilmə yeri və növü müqavilənin xüsusi şərtlərində göstərilməlidir. Sifarişçi belə texniki nəzarətin və sınağın keçirilməsi üçün təyin olunmuş nümayəndələri barədə İcraçıya vaxtında yazılı məlumat verməlidir.
17.3. Texniki nəzarət və sınaq İcraçının (submüqavilələri icra edənlərin) ərazisində keçirilə bilər. Belə hallarda İcraçı Sifarişçiyə (və ya onun nümayəndələrinə) lazımi kömək göstərməlidir.
17.4. Sifarişçi texniki nəzarətdən və ya sınaqdan keçməyən mallardan imtina edə bilər. Bu halda İcraçı texniki nəzarətdən və ya sınaqdan keçməyən malları dəyişdirir və ya Sifarişçinin tələblərini təmin edən digər malları təqdim edir.

18. Müqavilənin icrası müddətində qüsurların aradan qaldırılması

18.1. Müqavilənin icrası müddətində Sifarişçi aşkar olunmuş qüsurlar haqqında İcraçıya dərhal bildiriş verməlidir. Bildirişdə qüsurların aradan qaldırılması üçün məsuliyyət müddəti göstərilməlidir.
18.2. İcraçı qüsurlar haqqında bildirişi aldıqdan sonra həmin qüsurları bildirişdə müəyyən edilmiş məsuliyyət müddəti ərzində aradan qaldırır.
84.3. İcraçı məsuliyyət müddəti ərzində qüsurları aradan qaldırmırsa, Sifarişçi həmin qüsurların aradan qaldırılması üçün tələb olunan məbləği hesablayır və İcraçıya ödəniləcək məbləğdən çıxır.

19. Texniki təminat

19.1. Müqavilənin xüsusi şərtlərində digər tələblər nəzərdə tutulmayıbsa, İcraçı müqavilə çərçivəsində göstərilmiş Xidmətlərə 12 ay müddətinə texniki təminat verir.
19.2. Təminat müddətində Sifarişçi tərəfindən aşkar olunmuş qüsurlar İcraçının vəsaiti hesabına ən qısa müddətdə aradan qaldırılmalıdır.
19.3. İcraçı müqavilənin xüsusi şərtlərində göstərilmiş müddətdə qüsurları aradan qaldırmazsa, Sifarişçi cərimə sanksiyaları tətbiq edə bilər.

20. Cərimələr

20.1. İcraçı müqaviləni (və ya onun hər hansı hissəsini) əsas şərtər toplusunda müəyyən olunmuş qaydada və müddət ərzində yerinə yetirmədikdə (gecikdirdikdə), Sifarişçi digər hüquqlara ziyan vurmadan müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş cərimə sanksiyaları (qarşısıalınmaz qüvvənin təsiri istisna olmaqla) tətbiq edir. Cərimələrin məbləğinin yuxarı həddi müqavilənin xüsusi şərtlərində göstərilir və bu məbləğ müqavilənin qiymətinin 10 faizindən çox olmamalıdır. Cərimələrin məbləği müəyyənləşdirilmiş maksimum həddə çatdıqdan sonra Sifarişçi müqaviləni ləğv edə bilər.
20.2. Sifarişçi müqavilədə müəyyən olunmuş müddət ərzində və müqavilənin xüsusi şərtlərində göstərilmiş qaydada ödəmələri aparmasa, İcraçı müqavilənin xüsusi şərtlərində müəyyən edilmiş məbləğdə cərimə sanksiyaları tətbiq edə bilər.

21. Qarşısıalınmaz qüvvə

21.1. Müqavilənin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, İcraçı müqavilənin yerinə yetirilməsi təminatından məhrum olunmadan, cərimələrin ödənilməsindən azad edilir və müqavilənin pozulması üçün məsuliyyət daşımır.
21.2. Qarşısıalınmaz qüvvənin təsirinə Sifarişçi və İcraçı tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, dövlət və hökümət qərarları və bu kimi digər hallar aid edilir.
21.3. İcraçı qarşısıalınmaz qüvvənin təsiri barədə və yaranma səbəbləri haqqında yazılı məlumatı yubanmadan Sifarişçiyə göndərməlidir. Əgər Sifarişçidən digər yazılı təlimat daxil olmayıbsa, İcraçı öz imkanları daxilində qarşısıalınmaz qüvvənin təsirindən asılı olmayan müqavilə öhdəliklərinin yerinə yetirməsini davam etməli və qarşısıalınmaz qüvvənin təsirindən asılı olan müqavilə öhdəliklərinin yerinə yetirilməsi üçün alternativ üsullar axtarmalıdır.

22. Müqavilə üzrə sənədləşdirmənin aparılması

22.1.Müqavilə üzrə sənədləşdirmə (o cümlədən xəbərdarlıq, bildiriş və s.) yazılı şəkildə aparılır. Sənədləri qəbul edən tərəf müvafiq sənədlərin (məlumatların) alınmasını təsdiqləməlidir. Göndərilən sənədlər (məlumatlar) digər tərəfə çatdırıldığı tarixdən qüvvəyə minir.
22.2. Müqavilənin yerinə yetirilməsinin sənədləşdirilməsi İcraçı tərəfindən müqavilənin xüsusi şərtlərində nəzərdə tutulmuş qaydada aparılır. Sifarişçi sənədləşdirmənin düzgün

aparılmasına nəzarət edə bilər (o cümlədən audit və digər yoxlamalar vasitəsi ilə). Bu cür yoxlamalar müqavilənin yerinə yetirilməsi zamanı və ya müqavilənin icrası başa çatdıqdan sonra üç ay müddətində aparıla bilər.

23. Vergilər və rüsumlar

Tərəflər Azərbaycan Respublikasının mövcud qanunvericiliyində nəzərdə tutulmuş tələblərə uyğun olaraq bütün vergilərin, rüsumların, lisenziya haqlarının və digər ödənişlərin aparılmasına məsuliyyət daşıyırlar.

24. Müqavilənin ləğv edilməsi

24.1. Müqavilə şərtlərinin pozulmasına görə müqavilənin ləğv edilməsi
Müqavilə şərtlərinin əsaslı pozulmasına yol verilərsə, Sifarişçi və ya İcraçı qarşı tərəfə 30 (otuz) gün əvvəl yazılı xəbərdarlıq etmək şərti ilə müqaviləni bütövlükdə ləğv edə bilər.
Aşağıdakı pozuntular əsaslı sayılır:

- İcraçının müqavilədə nəzərdə tutulmadığı hallarda və ya Sifarişçi ilə razılaşmadan 15 gündən artıq müddətdə işləri dayandırması;
- Sifarişçinin verdiyi təlimat əsasında işlər 15 gündən artıq müddətə dayandırıldıqda, İcraçı ilə işlərin dayandırılması ilə əlaqədar gecikdirmələrin xərclərin ödənilməsi üçün razılığın əldə edilməməsi;
- Sifarişçi və ya İcraçının iflasa uğraması və ya ləğv olunması (müəssisə və təşkilatların yenidənqurulması halları istisna edilməklə);
- Sifarişçinin müqavilənin pozulmasına səbəb ola biləcək qüsurlar haqqında yazılı bildirişinə baxmayaraq. İcraçının təqdim edilmiş sənəd əsasında 30 gün müddətində tədbir görməməsi;
- müqavilənin xüsusi şərtlərində göstərilən qaydada vurulmuş ziyanların maksimum həddi aşması;
- tərəflərin tətbiq etdikləri cərimə məbləğinin yuxarı həddi aşması;
- tərəflərin müqavilədə nəzərdə tutulmuş digər öhdəliklərini yerinə yetirməməsi

Müqavilə ləğv olunarsa, İcraçı 15 gün müddətində müqavilənin icrasını dayandırır və müqavilənin icrası nəticəsində əldə edilmiş Xidmətlərin qorunması üçün təxirəsalınmaz tədbirləri görərək, onları Sifarişçiyə təhvil verir.
24.2. Ödəmə qabiliyyəti olmaması səbəbindən müqavilənin ləğv edilməsi
Sifarişçinin və ya İcraçının ödəmə qabiliyyəti olmadıqda, qarşı tərəf yazılı bildiriş göndərərək müqaviləni ləğv edə bilər.
İcraçı iflasa uğradıqda, onun hüquqi varisi varislik hüquqları aldıqdan 10 bank günü müddətində Sifarişçiyə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək haqqında yazılı müraciət edərsə, iflasa uğramış İcraçının varisi ilə müqavilənin şərtləri əsasında satınalma müqaviləsinin başa çatdırılması barədə yeni müqavilə bağlana bilər. Əks halda, iflasa uğramış İcraçının müqavilə üzrə yerinə yetirilmiş öhdəlikləri və ya ödənilmiş vəsaitləri Sifarişçinin ixtiyarına keçir.

25. Maraqların ziddiyyəti

İcraçı müqavilə üzrə məsləhətçi qismində iştirak edərsə, müqavilənin icra müddətində və ya icrası başa çatandan sonra özü və ya onun tabeliyində olan hüquqi şəxslər müqavilə

üzrə göstərilən məsləhət xidmətlərindən irəli gələn və bununla əlaqəli olan malların (işlərin və ya xidmətlərin) satınalmalarında iştirak edə bilməz.

26. Mübahisəli məsələlərin həlli

26.1. Tərəflər müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri və ya qeyri-müəyyənlikləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.
26.2. Mübahisəli məsələlərin və qeyri-müəyyənliklərin həlli danışıqlar yolu ilə 30 gün müddətində mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərinə əsasən həll edilməlidir.

TƏRƏFLƏRİN REKVİZİTLƏRİ VƏ İMZALARI

"SİFARİŞÇİ"	**"İCRAÇI"**
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi	**"Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi**
VÖEN: 1700166771 H\h:AZ86CTRE00000000000002018501 Bank: Dövlət Xəzinədarlıq Agentliyi VÖEN: 1401555071 Kod: 210005 M\h:AZ41NABZ01360100000000003944 S.W.İ.F.T BIK: CTREAZ22	VÖEN: 1702396271 Bank: "PAŞA Bank" ASC Kod: 505141 VÖEN: 1700767721 Müxbir hesab: AZ82NABZ01350100000000071944 Hesablaşma hesabı: AZ04PAHA40090AZNHC0200080629 SWIFT: PAHAAZ22
İşlər müdiri	İdarə Heyətinin sədri
_____Ramin Quluzadə M.Y.	_____Anar Qədirli M.Y.

Əlavə 1

Xidmətlərin satın alınması üzrə
13. 12. 2023-cü il tarixli nömrəli 040-12/2023 nömrəli
Satınalma Müqaviləsinin
XÜSUSİ ŞƏRTLƏRİ

Satınalma müqaviləsinin müvafiq bəndi	Satınalma müqaviləsinin müvafiq bəndinə dair xüsusi şərt	Qeyd
2.2 (ikinci cümlə)	Sifarişçi Xidmətlərin bu müqavilədə göstərilmiş şərtlərə uyğun olmadığını aşkar etdikdə, İcraçıya 3 gün ərzində aşkar edilən qüsurların (nöqsanların) aradan qaldırılması barədə bildiriş verir. İcraçı bildirişi aldıqdan sonra 1 gün ərzində bəyan edilmiş qüsurların (nöqsanların) araşdırılılması üçün nümayəndə ayırır və onun Sifarişçinin nümayəndəsi ilə birlikdə qüsurların (nöqsanların) araşdırılmasında iştirakını təmin edir. İcraçı bildirişi aldığı andan 10 gün ərzində öz hesabına qüsurları (nöqsanları) aradan qaldırmalıdır. Əks təqdirdə, Sifarişçi həmin Xidmətin məbləğini İcraçıya ödəniləcək mələğdən tutur və ya İcraçı Sifarişçinin tələbi irəli sürdüyü andan 15 bank günü ərzində qüsurlu Xidmətə görə ödənilən məbləği geri qaytarmalıdır.	
3.1 (ikinci cümlə)	Xüsusi şərt nəzərdə tutulmur	
5.3	Xüsusi şərt nəzərdə tutulmur	
5.5	Xüsusi şərt nəzərdə tutulmur	
8.1	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
8.2	Azərbaycan Respublikasının ərazisi daxilində Mallar və Xidmətlər İcraçı tərəfindən Sifarişçinin müəyyən etdiyi ünvana təqdim olunmalıdır.	
9	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
10	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
13.1.	Müqavilə üzrə ödəmələr (o cümlədən avans ödənişi) İcraçının təqdim etdiyi sənədlər (qaimələr, aktlar, digər sənədlər) əsasında qısa müddət ərzində, lakin 15 bank günündən gec olmamaq şərti ilə aparılır. Müqavilənin icrası ilə bağlı müəyyən edilmiş sənədlər İcraçı tərəfindən təqdim olunduqdan sonra Sifarişçi 15 bank günü ərzində bu sənədləri təsdiq etməli və ya bundan əsaslandırılmış imtina etməlidir. Bu müddət ərzində sənədlər Sifarişçi tərəfindən təsdiq edilmədikdə və ya həmin sənədlərin təsdiq edilməsindən əsaslandırılmış imtina olunmadıqda, təqdim olunan sənədlər Sifarişçi tərəfindən təsdiq olunmuş hesab olunur	
13.2.	Müqavilə üzrə avans ödənişi nəzərdə tutulmur.	

13.3 (birinci cümlə)	Müqavilə üzrə ödəmələr İcraçı tərəfindən Xidmətlər təhvil verildikdən və bu Müqavilənin 13.1-ci maddəsində müəyyən edilmiş sənədlər təqdim edildikdən sonra bu Müqavilənin 13.1-ci maddəsində qeyd edilmiş müddətdə İcraçıya ödənilir.	
13.4 (birinci cümlə)	Müqavilə İcraçı və ya Sifarişçi tərəfindən ləğv olunursa, tərəflər ödənişlərin (o cümlədən avans və digər ödənişlərin) məbləğini müəyyənləşdirən və müqavilənin icrasını təsdiq edən sənədlər tərtib edirlər.	
13.5	Müqavilə üzrə ödəmələr Müqavilənin 13.1-ci bəndinin xüsusi şərtlərində müəyyən olunmuş müddətdə aparılmadıqda, Sifarişçiyə gecikdirilmiş hər gün üçün Müqavilənin 20.2-ci bəndinin xüsusi şərtlərində nəzərdə tutulmuş cərimə sanksiyasını tətbiq edilə bilər.	
14.2 (ikinci cümlə)	Xüsusi şərt nəzərdə tutulmur	
14.3	Müqavilə imzalandığı andan qüvvəyə minir və 31 dekabr 2023-cü ilədək qüvvədədir. Müqavilə üzrə Xidmətlər Müqavilə imzalandıqdan sonra 10 təqvim günü müddətində icra olunur və təhvil verilir.	
15.1	Müqavilənin icrası ilə əlaqədar hər bir Tərəfin riskləri özləri tərəfindən sığortalanmalıdır.	
15.4	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
15.5	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
15.6	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
15.7	Xüsusi şərt nəzərdə tutulmur	
17	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
19.1	Bu Müqavilə üzrə Xidmətlər satın alındığı üçün tərəflər arasında imzalanmış müqavilədə həmin bəndə istinad olunmur	
19.3.	Təminat müddətində Sifarişçi tərəfindən aşkar olunmuş qüsurlar İcraçıya bildiriş daxil olduqdan sonrakı 10 gün ərzində aradan qaldırılmazsa, İcraçıya müqavilənin 20.1-ci bəndinin xüsusi şərtlərinə uyğun cərimə sanksiyaları tətbiq edilə bilər.	
20.1.	İcraçı müqaviləni (və ya onun hər hansı hissəsini) müəyyən olunmuş qaydada və müddət ərzində yerinə yetirmədikdə (gecikdirildikdə), Sifarişçi digər hüquqlara ziyan vurmadan İcraçıya aşağıdakı cərimə sanksiyaları (qarşısıalınmaz qüvvənin təsiri istisna olmaqla) tətbiq edir: - Xidmətləri qrafik üzrə müəyyən edilmiş müddətdə təqdim etmədikdə, hər gecikdirilmiş gün üçün göstərilməyən Xidmətlərin dəyərinin 0,1%-i məbləğində. - Bu Müqavilənin 18.1-ci bəndinə uyğun olaraq müqavilənin icrası müddətində qüsuru aradan qaldırmırsa, hər qüsurlu Xidmətin dəyərinin 50%-i məbləğində;	

	- Bu Müqavilənin 19.3-cü bəndinə uyğun olaraq təminat müddətində qüsuru aradan qaldırmırsa, hər qüsurlu Xidmətin dəyərinin 50%-i məbləğində Tətbiq edilən cərimə İcraçını icranın gecikdirilməsinə görə Sifarişçiyə dəymiş zərəri 100% ödəmək vəzifəsindən azad etmir. Cərimələrin məbləğinin yuxarı həddi müqavilənin dəyərinin 10 %-dən çox olmamalıdır. Cərimələrin məbləği müqavilə məbləğinin 10 %-nə çatdıqdan sonra Sifarişçi müqaviləni ləğv edə bilər.	
20.2	Sifarişçi Müqavilədə müəyyən olunmuş müddət ərzində və müqavilədə göstərilmiş qaydada ödəmələri aparmırsa, hər gecikdirilmiş gün üçün Müqavilə məbləğinin 0,01%-i məbləğində cərimə sanksiyaları tətbiq edilə bilər. Tətbiq edilən cərimə Sifarişçini ödəmənin gecikdirilməsinə görə İcraçıya dəymiş zərəri 100% ödəmək vəzifəsindən azad etmir. Cərimələrin məbləğinin yuxarı həddi müqavilə dəyərinin 10 %-dən çox olmamalıdır. Cərimələrin məbləği müqavilə məbləğinin 10 %-nə çatdıqdan sonra İcraçı müqaviləni ləğv edə bilər.	
22.2 (birinci cümlə)	Xüsusi şərt nəzərdə tutulmur	
24.1 (səkkizinci abzas)	Vurulmuş ziyanların maksimum həddi müqavilə dəyərinin 10% müəyyən olunur	

"SİFARİŞÇİ"

Azərbaycan Respublikası Prezidentinin

İşlər İdarəsi

İşlər müdiri

Ramin Quluzadə

M.Y

"İCRAÇI"

"Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi

İdarə Heyətinin sədri

Anar Qədirli

M.Y

Əlavə 2

Xidmətlərin satın alınması üzrə
13. 12. 2023-cü il tarixli 040-12/2023 nömrəli
Satınalma Müqaviləsinin

QİYMƏT RAZILAŞMA PROTOKOLU

Bakı şəhəri 13. 12. 2023-cü il

Biz, aşağıda imza edənlər, bir tərəfdən bundan sonra "Sifarişçi" adlandırılacaq Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, İşlər müdiri Ramin Quluzadənin şəxsində, digər tərəfdən bundan sonra "İcraçı" adlandırılacaq "Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi, İdarə Heyətinin sədri Anar Qədirli şəxsində (Sifarişçi və İcraçı birlikdə "Tərəflər" kimi adlandırılır) Tərəflər arasında bağlanmış 13. 12. 2023-cü il tarixli 040-12/2023 nömrəli Satınalma Müqaviləsi əsasında xidmətlərin satın alınması üzrə aşağıdakı razılığa gəldik:

№	Xidmətin adı	Ümumi dəyər (manat)
1	Platformaya əlavə ediləcək kontentlə bağlı aparılacaq işin mərhələlərə bölünməsi, planlaması	3 000,00
2	Platforma üçün materialların strukturunun müəyyən edilməsi və kateqoriyalaşdırma	3 000,00
3	Platformada yerləşdiriləcək arxiv sənədlərinin fondlaşdırılması və qısa məzmunlarının hazırlanması	3 000,00
4	Platformanın foto və video materiallar bölmələri üçün materialların kateqoriyalaşdırılması	3 000,00
5	Platformada yerləşdiriləcək xəritələr təhlili və strukturunun müəyyən edilməsi	3 000,00
6	Mövcud materialların bir qisminin ilkin təhlili, tərcüməsi və platformaya yerləşdirilməsi	5 000,00
	Cəmi (bütün xərclər daxil):	**20 000,00**

Bu Razılaşma Protokolu biri "Sifarişçi", digəri isə "İcraçı"da saxlanılmaqla, 2 (iki) nüsxədə tərtib edildi, imzalandığı gündən qüvvəyə minir və 13. 12. 2023-cü il tarixli 040-12/2023 nömrəli Satınalma Müqaviləsinin ayrılmaz tərkib hissəsi hesab edilir.

Tərəflərin adı və imzası:

"SİFARİŞÇİ"

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

(imza, möhür)

Ramin Quluzadə

"İCRAÇI"

"Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi

(imza, möhür)

Anar Qədirli

Azərbaycan Respublikası Strateji Kommunikasiyalar Mərkəzi İctimai birliyi

Əlavə 3

MƏXFİLİK VƏ MƏLUMATLARIN AÇIQLANMAMASI HAQQINDA

RAZILAŞMA

Bakı şəhəri **"13" 12 2023-cü il**

Hazırkı Məxfilik və Məlumatların Açıqlanmaması haqqında Razılaşma (bundan sonra "Razılaşma"adlandırılacaq), bir tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və Əsasnamə əsasında fəaliyyət göstərən, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə tərəfindən təmsil olunan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi (VÖEN: 1700166771) və digər tərəfdən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və Nizamnamə əsasında fəaliyyət göstərən, İdarə Heyətinin sədri Anar Qədirli tərəfindən təmsil olunan "Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi (VÖEN: 1702396271) arasında bağlanılır.

Bu Razılaşma çərçivəsində Məxfi Məlumatı qarşı tərəfə ötürən "Məlumatı Açıqlayan Tərəf", həmin məlumatı qəbul edən tərəf isə "Məlumatı Alan Tərəf"dir.

Məlumatı Alan Tərəf və Məlumatı Açıqlayan Tərəf bundan sonra birlikdə "Tərəflər", ayrı-ayrılıqda "Tərəf" adlandırılacaq.

MADDƏ 1. MƏXFİ MƏLUMAT

1.1. Məxfi Məlumat (şifahi, yazılı, vizual, şəkil, elektron və s. vasitələrlə təqdim edilmiş) dedikdə, hansı yolla və hansı formada əldə edilməsindən, yaxud saxlanılmasından asılı olmayaraq Məlumatı Açıqlayan Tərəfin Məlumatı Alan Tərəfə açıqladığı və ya təqdim etdiyi bütün məlumatlar daxildir.
1.2. Məxfi Məlumat məhdudiyyət olmadan, aşağıdakı məlumatları əhatə edir:
1.2.1. istənilən növ maliyyə məlumatları, maliyyə sənədləri, ümumi maliyyə məlumatı, maliyyə faktları, maliyyə əlaqələri;
1.2.2. istənilən növ biznes məlumatı, biznes yazışması, biznes planlar, biznes və ya daşınmaz əmlaka dair özgəninkiləşmə planları, biznes layihələri, kommersiya və satınalma sənədləri, müştəri və investorların əlaqə siyahıları, yazışmalar, ünvanlar və telefon nömrələri, fayllar, qiymət siyasəti, marketinq planları və strategiyaları, məhsulun hazırlanma texnikası və planları, təsisçilər, onların təsisçi olduqları və onlarla bağlı olan müəssisələr, habelə o müəssisələrlə də bağlı olan digər müəssisələr, onların nizamnamə kapitalındakı paylar barədə məlumat;
1.2.3. müştərilər, qiymətlər, gəlir və satış barədə məlumat; müqavilələrin şərtləri, xidmətlərin məzmunu və faktiki dəyəri barədə məlumat; bank hesabları, ödənişlər və mühasibat uçotu sənədlərinin məzmunu barədə məlumat; əməkdaşlar, işçilərin qiymətləndirməsi və əmək haqqı barədə məlumat;
1.2.4. istənilən növ texniki məlumat, strateji və texniki inkişaf planları, texnologiya, təhlükəsizlik, akkreditasiya, hazırlanma üsulu, texniki proseslərə dair məlumatlar;
1.2.5. dizayn, sxemlər, çertyojlar, xəritələr, təsvir, spesifikasiya, eskizlər və Tərəfin obyektləri ilə əlaqədar digər sənədlər; (memarlıq və digər) dizayn və dizayn layihələri, konsepsiya, idea, ixtira və araşdırma proqramları, ticarət "nou-hau", ticarət sirri;

1.2.6. alqoritmlər, kompüter əməliyyat sistemi və ya proqramları, proqram təminatı, obyekt və ya mənşə kodları, istifadəçi təlimatları, sistem sənədləri, (başa çatdırılmış, dayandırılmış və ya potensial) layihələr;
1.2.7. Məlumatı Açıqlayan Tərəfə, əlaqəli şəxslərinə məxsus məxfi hesab edilən istənilən növ digər məlumat.
1.3. Məxfi Məlumata həmçinin məhdudiyyət olmadan qanunla kommersiya sirri və /və ya dövlət sirri hesab edilən bütün məlumatlar daxildir. Məxfi Məlumat onun surətini və ya ondan edilən çıxarışları, həmçinin modulu, nüsxələri, sxemləri, foto surətləri və ya hissələri də əhatə edir.

MADDƏ 2. MƏXFİ MƏLUMATIN SAXLANILMASI VƏ İSTİFADƏSİ

2.1. Məlumatı Alan Tərəf bu Razılaşmaya uyğun Məxfi Məlumatı məxfi saxlamaq və həmin Məxfi Məlumatı Tərəflər arasında imzalanmış Müqavilələrin məqsədi ilə əlaqədar bilməli olan müəssisə daxilində istənilən şəxs, digər şəxslərə, peşəkar məsləhətçilərə çap etməmək, açıqlamamaq, güzəşt etməmək, ötürməmək, satmamaq, surətini çıxarmamaqla razılaşır.
2.2. Məlumatı Alan Tərəf Məlumatı Açıqlayan Tərəfdən aldığı Məxfi Məlumatı istənilən qanunsuz istifadə, açıqlama, ötürmə, çap və s. qarşı o səviyyədə qorumalıdır ki, həmin qorunma səviyyəsi Məlumatı Alan Tərəfin özünə məxsus oxşar təbiətli məlumatı qorumaq səviyyəsindən aşağı olmasın.
2.3. Məlumatı Alan Tərəf Məxfi Məlumatın Məlumatı Alan Tərəf tərəfindən qanunsuz istifadəsi və ya açıqlanmasını aşkar edərsə, və ya Məlumatı Alan Tərəf bu Razılaşmanın digər müddəalarının pozuntusuna yol verərsə, bu barədə Məlumatı Açıqlayan Tərəfə məlumat vermək öhdəliyi götürür və Məlumatı Açıqlayan Tərəfə Məxfi Məlumata dair mülkiyyət hüququnu bərpa etməkdə və həmin məlumatın gələcəkdə qanunsuz istifadəsinin qarşısını almaqda kömək etmək məqsədilə Məlumatı Açıqlayan Tərəflə əməkdaşlıq edir.
2.4. Bu Razılaşmanın 2.1-2.3-cü maddələrinə baxmayaraq, Məlumatı Alan Tərəf aşağıdakıları sübut edərsə göstərilən məlumatı açıqlaya bilər:
2.4.2. Məlumatı Alan Tərəf tərəfindən bu Razılaşmanın müddəalarını pozmadan ictimaiyyətə açıqlanmış məlumat;
2.4.3. məhkəmə və ya inzibati qaydada və ya tətbiq edilən qanun və qaydalara əsasən açıqlanması tələb edilən məlumat;
2.4.4. Məlumatı Alan Tərəf tərəfindən açıqlanması üçün Məlumatı Açıqlayan Tərəfin aydın yazılı təsdiqi olan məlumat.

MADDƏ 3. MƏXFİ MƏLUMATA MÜLKİYYƏT HÜQUQU

3.1. Məlumatı Açıqlayan Tərəf tərəfindən Məlumatı Alan Tərəfə hər hansı formada ötürülən bütün Məxfi Məlumat Məlumatı Açıqlayan Tərəfin müstəsna mülkiyyətində qalır. Məlumatı Açıqlayan Tərəf bu cür Məxfi Məlumatı Məlumatı Alan Tərəf qarşısında heç bir öhdəliyi olmadan istənilən məqsədlər üçün istifadə edə bilər.
3.2. Məlumatı Alan Tərəf Məlumatı Açıqlayan Tərəfin qabaqcadan yazılı razılığı olmadan Məlumatı Açıqlayan Tərəfin Məxfi Məlumatından alınan və ya həmin məlumatı daxil edən, hər hansı məhsul və ya əşyanı düzəltməməli, istifadə etməməli və ya satmamalıdır.
3.3. Məlumatı Açıqlayan Tərəfin tələbi ilə Məlumatı Alan Tərəf Məxfi Məlumatı özündə əks etdirən bütün maddi materialları, həmçinin Məxfi Məlumatlar olan sənədlərin əslini, surətlərini, reproduksiyalarını, xülasələri, memorandalarını, çertyojları, təlimatları,

qeydləri və ya çıxarşları, onların surətlərini özündə saxlamamaq şərtilə Məlumatı Açıqlayan Tərəfin seçiminə uyğun ya ona geri qaytarmalı, yaxud onların məhvini sübut etməlidir.

MADDƏ 4. FORS MAJOR

4.1. Hazırkı Razılaşma üzrə öhdəliklərini yerinə yetirməyən və lazımınca yerinə yetirməyən Tərəf öhdəliklərin fors-major hallarının, yəni konkret vaxt hüdudunda meydana gələn qarşısı alınmaz fövqəladə halların səbəbindən icra edilmədiyini sübut etdiyi halda, heç bir məsuliyyət daşımır.
4.2. Qarşısıalınmaz hallar aşağıdakılardır:
təbii fəlakətlər (zəlzələ, daşqın, vulkan püskürməsi, torpaq sürüşməsi, sunami), bu Razılaşma üzrə öhdəliklərin icra edilmə yerində insan üçün normal həyat fəaliyyəti istisna edən küləyin gücü, hərarəti və çöküntülərin dərəcəsi; icra hakimiyyəti orqanlarının moratoriumları və Tərəflərin qarşılıqlı olaraq icra olunmalı öhdəliklər üçün fövqəladə hal kimi müəyyən edə bildikləri digər hallar.
4.3. Fors-major hallarının təsiri altına düşən Tərəf bu barədə digər Tərəfi belə halların başlandığı andan 10 (on) təqvim günü müddətindən gec olmayaraq xəbərdar etməlidir. Digər tərəfi vaxtında xəbərdar etməmə halı fors-major halına əsaslanma hüququ vermir.

MADDƏ 5. MƏSULİYYƏT

5.1. Tərəflərdən biri bu Razılaşma öhdəliklərini pozarsa, öhdəliyi pozan Tərəf ("Öhdəliyi Pozan Tərəf") digər Tərəf ("Öhdəliyi Pozmayan Tərəf") qarşısında Öhdəliyi Pozmayan Tərəfin bu cür pozuntu nəticəsində çəkdiyi faktiki zərərə görə tam məsuliyyət daşıyır.
5.2. Bu Razılaşmada heç bir müddəa Tərəfin dələduzluq və yalan məlumat təqdim etməyə görə və ya tətbiq edilən qanuna görə Tərəfin istisna oluna bilməyən istənilən digər məsuliyyəti məhdudlaşdıra bilməz.
5.3. Məlumatı AlanTərəf, bu Razılaşmanın yerinə yetirilməməsi və ya lazımi qaydada yerinə yetirilməməsindən yaranan əldən çıxmış fayda, o cümlədən heç bir məhdudiyyət qoyulmadan hər hansı bir gəlirin itirilməsinə görə məsuliyyət daşıyır.
5.4. Tərəflər Razılaşmanın şərtlərinə müəyyən olunmuş qaydada və müddət ərzində yerinə yetirmədikdə, Məlumatı Açıqlayan Tərəf Məlumatı Alan Tərəfə ziyan vurulmuş hər bir hal üzrə 10 000 ABŞ dolları məbləğində cərimə sanksiyası tətbiq edir.

MADDƏ 6. RAZILAŞMANIN MÜDDƏTİ

Hazırkı Razılaşma Tərəflərin imzaları ilə təsdiq olunduğu tarixdən qüvvəyə minir və Tərəflər arasında imzalanmış Müqavilələrin qüvvədəolma müddətinin bitdiyindən, ləğvindən və ya xitamından asılı olmayaraq 5 (beş) il ərzində qüvvəsini itirmir.

MADDƏ 7. TƏTBİQ EDİLƏN HÜQUQ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

7.1. Bu Razılaşma Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tənzimlənir və təfsir olunur.
7.2. Tərəflər arasında bu Razılaşma və ya onunla əlaqədar yarana biləcək bütün mübahisə və fikir ayrılıqları danışıqlar yolu ilə həll olunmalıdır.
7.3. Danışıqlar müsbət nəticə vermədiyi halda, mübahisə və fikir ayrılıqları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə vasitəsi ilə həll olunur.

MADDƏ 8. DİGƏR ŞƏRTLƏR

8.1. Bu Razılaşma Tərəflər arasında əldə edilmiş tam razılığı ifadə edir və imzalandığı andan Razılaşmanın mövzusuna aid olan əvvəlki bütün razılaşmaları ləğv edir.
8.2. Heç bir Tərəf, digər Tərəfin qabaqcadan yazılı şəkildə verilmiş razılığı olmadan, bu Razılaşma üzrə hüquq və ya öhdəliklərini digər şəxslərə ötürə bilməz.
8.3. Məlumatları Alan Tərəfin bu Razılaşma üzrə öhdəlikləri bu Razılaşmanın imzalanmasından əvvəl Məlumatları Açıqlayan Tərəfin ötürduyü məlumatlara da şamil edilir.
8.4. Əgər Məxfi Məlumat Məlumatı Alan Tərəf tərəfindən bu Razılaşmanın 2.4.3-cü Maddəsinə uyğun olaraq açıqlanmalı olubsa, Məlumatı Alan Tərəf qanunun icazə verdiyi çərçivədə bu barədə Məlumatı Açıqlayan Tərəfi məlumatlandırmalıdır. Bu cür açıqlama Məxfi Məlumatın qorunması prosedurunu təxirə sala bilməz.
8.5. Bu Razılaşmaya edilən bütün dəyişikliklər və əlavələr yalnız Tərəflərlə yazılı şəkildə tərtib edildikdə və imzalandıqda hüquqi qüvvəyə malikdir. Bu Razılaşmaya qoşulmuş bütün əlavələr Razılaşmanın ayrılmaz tərkib hissəsini təşkil edir.
8.6. Hazırki Razılaşma eyni hüquqi qüvvəyə malik 2 (iki) nüsxədə, Azərbaycan dilində tərtib olunmuşdur.
8.7. Bu Razılaşmada xüsusilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən tənzimlənir.

TƏRƏFLƏRİN İMZASI

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri	**"Strateji Kommunikasiyalar Mərkəzi" İctimai Birliyi İdarə Heyətinin sədri**
_____ Ramin Quluzadə	_____ Anar Qədirli

Azərbaycan Respublikası Strateji Kommunikasiyalar Mərkəzi ictimai birliyi

İşlər müdirinin müavini — Leyla Məmmədova

Maliyyə şöbəsinin müdiri — Gülru Hüseynova

Müqavilələrin idarə olunması
və hüquq şöbəsinin müdiri — Ülviyyə Təhməzli

İnformasiya texnologiyaları və elektron
resursların idarə edilməsi şöbəsinin müdiri — Elçin Bayramov

Təchizat şöbəsinin Texniki
təchizat sektorunun müdiri - şöbə müdiri v.i.e. — Fuad Musazadə